# "AZƏRBAYCAN"

Ötən ayın son günlərində yolunu maraqla gözlədiyimiz oxucular üçün həmişə sürpriz nümunələr edən "Azərbaycan" jurnalının 6-cı sayı, yəni iyun nömrəsi işıq üzü gördü. Həmişəki kimi bu dəfə də jurnal özünün müxtəlif bölümlərində imzasını tanıyıb-tanımadığımız müəlliflərlə bizi qarşılaşdırdı.

Elə jurnalın bu sayında da yaradıcı kollektiv öz ənənsinə sadiq qalıbdı. Təbii ki, diqqətli oxucu bunu dərhal hiss edə bilir. O ki, qaldı bütövlükdə juonalın iyun sayına   Bəli, artıq yazı masamın üstündə olan və bir çox nümunələrini, xüsusilə poeziya bölümünü oxuyub başa çıxdığım "Azərbaycan"nın 6-cı sayında ədəbi-ictimaiyyət arasında o qədər də çox görünməyən Salam Sarvanın yeni şeirləri diqqətimi çəkdi. Həmişə orijinallığı ilə seçilən bu şairin "Azərbaycan"nın oxucularına təqdim etdiyi bu poeziya çələngində də xeyli yeni fikirlər, yeni təqdimat üslubu özünü göstərir.

Şeirlərin hər birində fərqli obraz yaradan Salam Sarvan yazır:

Alo  
Dünyanı dolaşmadan, yalnız öz küçəmizdə  
Öz şəhərimizdə görüşdüyümüz qızları sevdik!  
Bəlkə də mənim əsl sevgim,  
Məsələn uzaq Afrikadakı qara dərili qız idi.

Mən o qızı düşündükcə indi ahıl yaşımda  
Utanıram evimdə öz həyat yoldaşımdan.  
..............................................................  
Başımda o qara dərili qızın sevdası  
İçimdə mühacirət arzusu -  
Neçə vaxtdı ki başımı aşağı salıb  
Yerin fırlanmağına baxır

**Və yaxud:**

Kim idik?  
Pis söyüşlər söyməyi sünnətdən sonra öyrənmiş,  
Kirvəsindən, dəlləyindən qorxan bir kənd uşağı

Öz oyuncaqlarımızı da özümüz düzəltdik-  
Taxtadan tapança, məftildən araba

İndi kimik?  
Tək adamlıq xaraba!




Salam Sarvanın şeirlərinin hər birində şəxsən mənim üçün orijinal görünən, diqqət çəkən çalarların arxasında şairin tək-tək düşüncələri yox, həm də yaşamı dayanır. Mən bu şeirləri müəllifin iç dünyası kimi görürəm. Ona görə də hər bir şeiri ayrıca nümunə kimi təqdim etmək istəyimi cilovlayıb sadəcə vurğulayıram ki, Azərbaycan juranlının son sayında hər kəs bu şeirlərlə tanış ola bilər.

Poeziya bölümündə həmçinin Avdı Qoşqarın, Seyran İsmayılovun, Rizvan Nəsiboğlunun, Cığatelin, Allahşükür Ağanın şeirlərini də oxumaq mümkündür. Bu şairlərin poeziya buketində də oxucular üçün maraqlı məqamlar yetərincədir.

Jurnalın "Yeni tərcümələr" bölümündə də Vasili Belovun və Nobert Yevdayevin əsərlərindən nümunələr verilmişdir. Xatırlatmaq istəyirəm ki, şeirləri Azərbaycan dilinə qələm dostumuz Dəyanət Osmanlı çeviribdi.

Bir məqam da jurnal üçün xarakterikdi. Belə ki, yarandığı gündən "Azərbaycan" söz adamlarının yubileylərini də adamlara xatırlatmağı unutmur. Məhz bu sayda dəyərli şairimiz Vaqif Bəhmənlinin  60 illiyi, həmçinin bölgədə yaşayan söz adamı İltifat Salehin 80 yaşı necə deyərlər, səxavətlə oxucuların diqqətinə təqdim olunubdu. Vaqif Bəhmənli ilə söhbəti jurnalın baş redaktoru İntiqam Qasımzadə, İltifat Salehin təqdimatını isə oxuculara juranlın baş redaktor müavini, tənqidçi Əsəd Cahangir sərgiləyibdi.

Yeri gəlmişkən, onu da xatırladım ki, 6-cı sayda Əsəd Cahangir özünün dəyirmi masasını da təqdim edibdi. Burada söhbət ədəbi tənqiddən, onun problemlərindən gedir.  Masanın qonaqları Çingiz  Əlioğlu, İlqar Fəhmi, Rüstəm Kamal, Bəsti Əlibəyli və Elnarə Akimovadır. Maraqlı oxunan bu sayda İlqar Fəhmi özünün yeni dram əsərini də, yəni "Hər şey tərsinə və ya Müsibəti-Fəxrəddin"i oxuculara təqdim edibdi.

Son olaraq onu da xatırladım ki, jurnalda həvəslə oxuduğum bölümlərdər biri də xatirələrlə, duyğularla bağlıdır. Bu dəfə də həmin bölümdə Qəşəm Nəcəfzadə mərhum şairimiz Ələkbər Sadıqzadə ilə bağlı içində olanları dilə gətiribdi.

Ümumyyətlə demək olar ki, baş redaktoru İntiqam Qasımzadə, müavinləri Südabə Ağabalayeva, Əsəd Cahangir və məsul katib Tofiq Mahmudov olan "Azərbaycan" jurnalının bu sayı da həmişəki kimi böyük zəhmət  sayəsində maraqlı alınıbdı. Bunu oxuyanda özünüz də şahidi olacaqsınız.

**Əbülfət MƏDƏTOĞLU**